| Yanvar-aprel | 29 427,5 | 81,2 |
| Yanvar-may | 32 658,9 | 75,6 |
| Yanvar-iyun | 62 041,1 | 88,0 |
| Yanvar-iyul | 65 238,7 | 82,5 |
| Yanvar-avqust | 68 578,8 | 84,0 |
| Yanvar-sentyabr | 108 230,0 | 107,4 |
| Yanvar-oktyabr | 112 025,9 | 107,7 |
| Yanvar-noyabr | 116 027,0 | 109,0 |
| Yanvar-dekabr | 230 573,4 | 168,1 |
| **2025-ci il** | | |
| Yanvar | 574,1 | 75,2 |
| Yanvar-fevral | 1 244,0 | 49,5 |
| Yanvar-mart | 29 843,4 | 117,2 |
| Yanvar-aprel | 31 917,0 | 108,5 |
| Yanvar-may | 34 861,2 | 106,7 |
| Yanvar-iyun | 83 340,1 | 134,3 |
| Yanvar-iyul | 88 214,6 | 135,2 |
| Yanvar-avqust | 91 650,8 | 133,6 |
| Yanvar-sentyabr | 138 339,4 | 127,8 |
| Yanvar-oktyabr | 143 458,2 | 128,1 |
| Yanvar-noyabr | 146 392,4 | 126,2 |
| Yanvar-dekabr | 286 327,3 | 123,8 |

**Hərbi quruculuq.** 2025-ci ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəhərciyində hamam-camaşırxananın tikintisi davam etdirilmişdir.

**İnzibati binalar.** Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin binası istifadəyə verilmiş, "DOST" Mərkəzinin tikintisi davam etdirilmişdir.

Şərur, Babək və Ordubad şəhərlərində DOST Mərkəzinin filiallarının yaradılması davam etdirilmişdir.

**Mənzil-kommunal təsərrüfatı.** Naxçıvan şəhərində iki yaşayış binasının tikintisi davam etdirilmişdir.

Şərur rayonunda yaşayış binasının tikintisi və 14 yaşayış binasının əsaslı təmiri başa çatdırılmış, yaşayış kompleksinin tikintisi davam etdirilmişdir.

Şərur rayonunun Kərimbəyli, Sərxanlı və Dərəkənd, Ordubad rayonunun Dırnıs, Culfa rayonunun Yaycı və Ərəfsə, Kəngərli rayonunun Qarabağlar və Böyükdüz kəndlərinin hər birində bir mərasim evinin tikintisi başa çatdırılmış, Naxçıvan şəhərinin Tumbul və Bulqan, Babək rayonunun Nehrəm qəsəbəsində və Yarımca kəndində, Ordubad rayonunun Unus, Vələver və Başkənd, Kəngərli rayonunun Yeni Kərki, Şahbuz rayonunun Daylaqlı və Kiçikoba, Sədərək rayonunun Dəmirçi kəndlərinin hər birində bir mərasim evinin tikintisi davam etdirilmişdir.

**Su təchizatı.** Culfa rayonunun Əbrəqunus kəndində suaparıcı boru xəttinin və iki subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Babək rayonunun Qaraqala və Vayxır, Ordubad rayonunun Düylün, Şahbuz rayonunun Daylaqlı kəndlərinin hər birində bir subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Şərur rayonunun Yeni Havuş kəndində suvarma suyu xəttinin yenilənməsi, Şahbulaq kəndinə içməli su xəttinin çəkilməsi başa çatdırılmışdır.

Şahbuz rayonunun Aşağı Qışlaq kəndində subartezian quyusundan təzyiqli boru xəttinin tikintisi başa çatdırılmışdır.

Babək rayonunun Cəhri qəsəbəsi üçün kaptaj xəttinin və Payız kəndində kaptajın tikintisi başa çatdırılmış, Sirab kəndinə

subartezian quyusundan yeni boru xəttinin çəkilməsi davam etdirilmişdir.

Babək rayonunda yaşıllıq sahələrinə yeni boru xəttinin çəkilməsi başa çatdırılmışdır.

Babək, Kəngərli və Şahbuz rayonlarında seləqarşı istiqamətləndirici bəndlərin tikintisi davam etdirilmişdir.

Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ərazilərində subartezian quyularının əsaslı təmir-bərpa işləri davam etdirilmişdir.

Şərur və Babək rayonlarında kollektor-drenaj şəbəkələrinin təmizlənməsi davam etdirilmişdir.

Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ərazilərində kanal və arxların lildən təmizlənməsi davam etdirilmişdir.

## Naxçıvan şəhərində istehsal və xidmət sahələri

Hesabat dövründə "Güvən Qida" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən mayonez və ketçup istehsalı sahəsinin;

- stomatoloji klinikanın;
- daş məhsulları istehsalı sahəsinin;
- iaşə və xidmət sahəsinin;
- iaşə xidməti sahəsinin;
- anbarın;
- altı xidmət sahəsinin;
- "Təməl" Sənaye və Ticarət Şirkəti tərəfindən tikinti materialları istehsalı sahəsinin;
- bir heyvandarlıq təsərrüfatının yaradılması;
- tikinti materiallarının istehsalı sahəsinin;
- mebel istehsalı sahəsinin və iki heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- dəmir məhsulları istehsalı sahəsinin;
- "Sunny Hospitality Group" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən turizm sahəsinin;

- “Platinum” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən metal məmulatlarının istehsalı sahəsinin inkişaf etdirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində ticarət mərkəzinin;

- yeddi xidmət sahəsinin;
- iaşə və xidmət sahəsinin;
- iaşə xidməti sahəsinin;
- ticarət və xidmət sahəsinin;
- çörək istehsalı və xidmət sahəsinin;
- dam örtüyü istehsalı sahəsinin;
- “Avto Mexanika” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən avtomobil təmiri sahəsinin yaradılması;
- “Cahan Tabak Beynəlxalq” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tütün məmulatları istehsalı sahəsinin;
- “Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən pivə istehsalı sahəsinin;
- reklam fəaliyyətinin və xidmət sahəsinin;
- bir heyvandarlıq və bir arıçılıq təsərrüfatının genişləndirilməsi;
- “MY NA CRAB” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən xərçəng yetişdirilməsi sahəsinin;
- “Şəfa Özəl Tibb Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tibb mərkəzinin fəaliyyətinin inkişaf etdirilməsi davam etdirilmişdir.

## Şərur rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Şərur şəhərində üç ticarət sahəsinin;

- Şərur şəhərində və Zeyvə kəndində hər birində bir tikinti materiallarının istehsalı sahəsinin;
- Şərur şəhərində və Yengicə kəndində hər birində bir idman zalının;
- Məmmədsabir kəndində uşaq bağçasının;
- Şərur şəhərində avtomobil və avtomobil hissələrinin satışı sahəsinin;
- Şərur şəhərində xidmət sahəsinin;
- Şərur şəhərində ticarət və iaşə xidməti sahəsinin;

- Tumaslı kəndində çörək sexinin, avtotəmir, iaşə və xidmət sahəsinin;

- Cəlilkənd, Düdəngə, Xanlıqlar və Yengicə kəndlərinin hər birində bir ticarət sahəsinin;

- Xanlıqlar kəndində avtoyuma məntəqəsinin;

- Şərur şəhərində və Dərəkənd kəndində hər birində bir bərbərxananın;

- Dizə kəndində avtotəmir sexinin;

- Düdəngə kəndində avtotəmir və xidmət sahəsinin;

- Düdəngə kəndində avtoservis, iaşə və xidmət sahəsinin;

- Xələc, Ələkli və Çərçiboğan kəndlərinin hər birində bir mağazanın;

- Şərur şəhərində avtomobil təmiri sahəsinin;

- Vərməziyar kəndində iaşə və avtotəmir xidməti sahəsinin;

- Qorçulu kəndində şirniyyat sexinin, iaşə və xidmət sahəsinin;

- Qarxun kəndində üç, Şərur şəhərində, Qorçulu, Tumaslı, Yengicə və Xanlıqlar kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;

- Cəlilkənd kəndində avtomobil ehtiyat hissələrinin satışı, avtoservis və iaşə xidməti sahəsinin;

- Muğancıq-Mehrab kəndində soyuducu anbarın;

- Muğancıq-Mehrab kəndində avtotəmir sahəsinin;

- Kürçülü və Kosacan kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının yaradılması;

- Şərur şəhərində şadlıq sarayının əsaslı təmiri;

- Şərur şəhərində un məmulatlarının istehsalı sahəsinin;

- Yengicə kəndində meyvə qurusu istehsalı sahəsinin;

- Danyeri kəndində yükdaşıma xidmətinin;

- Xanlıqlar kəndində beş, Xələc kəndində üç, Arbatan, Çərçiboğan və Çəmənli kəndlərinin hər birində iki, Danyeri, Diyadin, Qarahəsənli, Oğlanqala, Dizə, Stansiya Daşarx, Havuş, Zeyvə, Çomaxtur, Babəki, Dərvişlər, Siyaqut və Aşağı Yaycı

kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Şərur şəhərində ticarət sahəsinin;

- Şərur şəhərində yanacaqdoldurma məntəqəsinin;
- Şərur şəhərində şirniyyat istehsalı və iaşə xidməti sahəsinin;
- Düdəngə və Yengicə kəndlərinin hər birində bir iaşə və xidmət sahəsinin;
- Şərur şəhərində idman zalının;
- Yuxarı Daşarx kəndində iaşə və xidmət sahəsinin;
- Zeyvə kəndində avtotəmir, iaşə və xidmət sahəsinin;
- Xanlıqlar kəndində avtoservis, iaşə və xidmət sahəsinin;
- Xanlıqlar kəndində çörək sexinin və unlu məmulatların istehsalı sahəsinin;
- Şərur şəhərində və Püsyan kəndində hər birində bir mağazanın;
- Kərimbəyli və Yuxarı Aralıq kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;
- Yengicə kəndində istixananın;
- Xələc kəndində heyvandarlıq təsərrüfatının;
- Kürkənd, Çəmənli və Kürçülü kəndlərinin hər birində bir soyuducu anbarın yaradılması;
- Məmmədsabir kəndində turizm sahəsinin;
- Düdəngə kəndində kağız dəsmal istehsalı sahəsinin;
- Xələc, Kürçülü və Qarxun kəndlərinin hər birində iki, Xanlıqlar, Maxta, Kosacan, Ərəbyengicə, Muğancıq Müslüm, Oğlanqala, Oğuzkənd, Tənənəm, Xətai, Arbatan və Məmmədsabir kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- Mahmudkənd və Arpaçay kəndlərinin hər birində bir istixana təsərrüfatının inkişafı davam etdirilmişdir.

## Babək rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Zeynəddin kəndində iki, Nehrəm, Cəhri qəsəbələrində, Şəkərabad və Badaşqan kəndlərində hər birində bir mağazanın;

- Cəhri qəsəbəsində istirahət kompleksinin;
- Cəhri qəsəbəsində və Zeynəddin kəndində hər birində bir iaşə xidməti sahəsinin;
- Babək şəhərində çörək istehsalı sahəsinin;
- Şıxmahmud kəndində un məmulatları istehsalı sahəsinin;
- Yuxarı Uzunoba kəndində iaşə və xidmət sahəsinin;
- Kərimbəyli kəndində ticarət və xidmət sahəsinin;
- Kərimbəyli kəndində əczaxananın;
- Badaşqan kəndində anbarın;
- Nehrəm qəsəbəsində, Qahab və Kərimbəyli kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının yaradılması;
- Hacıvar kəndində yükdaşıma xidmətinin;
- Qahab kəndində üç, Aşağı Buzqov kəndində iki, Kərimbəyli kəndində bir heyvandarlıq təsərrüfatının;
- Aşağı Uzunoba kəndində arıçılıq təsərrüfatının genişləndirilməsi;
- Sirab kəndində "Savalan-S" kiçik müəssisəsi tərəfindən limonat və qazsız suların istehsalı sahəsinin;
- Şıxmahmud kəndində "Zəngəzur Logistik" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yükdaşıma xidmətinin;
- Nehrəm qəsəbəsində üç, Çeşməbasar və Hacıvar kəndlərinin hər birində bir aqrar xidmət sahəsinin inkişaf etdirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Sirab kəndində Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti tərəfindən limonat istehsalı sahəsinin;
- Cəhri qəsəbəsində xidmət mərkəzinin;
- Babək şəhərində və Cəhri qəsəbəsində hər birində bir avtotəmir sahəsinin;
- Nehrəm qəsəbəsində çörək istehsalı və xidmət sahəsinin;
- Nehrəm qəsəbəsində avtoservisin;
- Cəhri qəsəbəsində tikinti materiallarının satışı sahəsinin;
- Cəhri qəsəbəsində ticarət və xidmət sahəsinin;
- Güznüt kəndində qaynaq sexinin;
- Nehrəm qəsəbəsində, Zeynəddin, Şıxmahmud, Qahab və Şəkərabad kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;

- Nehrəm və Cəhri qəsəbələrinin, Sirab və Hacıvar kəndlərinin hər birində bir xidmət sahəsinin;

- Məmmədrza Dizə kəndində avtoservis və xidmət sahəsinin;

- Nehrəm qəsəbəsində dörd, Babək şəhərində, Kərimbəyli, Şıxmahmud və Məzrə kəndlərinin hər birində bir mağazanın;

- Qahab kəndində avtomobil təmiri və iaşə xidməti sahəsinin;

- Güznüt kəndində avtoservis, iaşə və xidmət sahəsinin;

- Badaşqan kəndində avtotəmir və ehtiyat hissələrinin satışı sahəsinin;

- Payız kəndində restoranın;

- Badaşqan və Hacıvar kəndlərinin hər birində bir anbarın;

- Nehrəm qəsəbəsində iki, Şıxmahmud kəndində bir iaşə və xidmət sahəsinin;

- Babək şəhərində və Qahab kəndində hər birində bir əczaxananın;

- Zeynəddin kəndində istixana təsərrüfatının yaradılması;

- Vayxır kəndində bağçılıq təsərrüfatının;

- Nehrəm qəsəbəsində üç, Qahab kəndində iki, Sirab, Aşağı Buzqov, Naxışnərgiz, Şəkərabad, Vayxır və Zeynəddin kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının;

- Babək şəhərində, Hacıvar və Badaşqan kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

## Ordubad rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Dəstə kəndində ticarət sahəsinin;

- Ordubad şəhərində bərbərxananın;

- Vənənd kəndində avtomobil təmiri sahəsinin;

- Dəstə kəndində iki avtomobil təmiri sahəsinin və bir mağazanın;

- Dəstə kəndində mini futbol meydançasının;

- Sabirkənd və Üstüpü kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının yaradılması;

- Üstüpü kəndində taxta məhsulları istehsalı sahəsinin;

- Ordubad şəhərində iki, Darkənd, Qoşadizə və Biləv kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Üstüpü kəndində xidmət sahəsinin;

- Dəstə və Vənənd kəndlərinin hər birində bir avtomobil təmiri sahəsinin yaradılması;
- Ordubad şəhərində istirahət mərkəzinin yenidən qurulması;
- Unus kəndində arıçılıq təsərrüfatının;
- Qoşadizə, Çənnəb və Darkənd kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının;
- Qoşadizə kəndində istixana təsərrüfatının genişləndirilməsi;
- Ordubad şəhərində iaşə xidməti sahəsinin, Vənənd kəndində istirahət mərkəzinin təmiri davam etdirilmişdir.

## Culfa rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Yaycı kəndində çörək istehsalı sahəsinin;

- Bənəniyar kəndində gözəllik salonunun;
- Culfa şəhərində mağazanın və bərbərxananın;
- Bənəniyar kəndində avtomobil təmiri sahəsinin;
- Yaycı kəndində iaşə xidməti sahəsinin;
- Yaycı kəndində avtoyuma məntəqəsinin;
- Yaycı və Kırna kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının yaradılması;
- Yaycı kəndində heyvandarlıq təsərrüfatının;
- Yaycı və Şurud kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi;
- Saltaq kəndində plastik məmulatların istehsalı sahəsinin inkişaf etdirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Yaycı kəndində iaşə və xidmət sahəsinin;

- Yaycı kəndində dörd xidmət sahəsinin yaradılması;
- Bənəniyar kəndində çörək istehsalı sahəsinin;
- Bənəniyar kəndində dörd, Yaycı və Şurud kəndlərinin hər birində iki, Ləkətağ, Ərəzin və Şurud kəndlərinin hər birində

bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

## Kəngərli rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Qıvraq qəsəbəsində iki ticarət sahəsinin;

- Qıvraq qəsəbəsində ticarət və iaşə xidməti sahəsinin;
- Qıvraq qəsəbəsində xidmət sahəsinin;
- Böyükdüz kəndində iaşə xidməti sahəsinin;
- Qıvraq qəsəbəsində ticarət-xidmət sahəsinin;
- Yurdçu kəndində xidmət sahəsinin yaradılması;
- Qarabağlar kəndində arıçılıq təsərrüfatının;
- Xok kəndində üç heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Qıvraq qəsəbəsində, Qarabağlar və Şahtaxtı kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;

- Qıvraq qəsəbəsində mərmər istehsalı sahəsinin;
- Qıvraq qəsəbəsində xidmət sahəsinin;
- Şahtaxtı kəndində ticarət sahəsinin;
- Qarabağlar kəndində avtomobil təmiri sahəsinin;
- Qarabağlar kəndində iaşə və xidmət sahəsinin;
- Qarabağlar kəndində avtoservisin;
- Xok kəndində heyvandarlıq təsərrüfatının yaradılması;
- Qarabağlar kəndində iki heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- Çalxanqala kəndində şərabçılığın inkişaf etdirilməsi davam etdirilmişdir.

## Şahbuz rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Şahbuz şəhərində ticarət və xidmət sahəsinin;

- Sələsüz kəndində xidmət sahəsinin;
- Keçili kəndində bağçılıq təsərrüfatının;
- Yuxarı Qışlaq kəndində heyvandarlıq təsərrüfatının yaradılması;

- Külüs, Ağbulaq və Türkeş kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının;

- Nursu və Kolanı kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Şahbuz şəhərində iki iaşə və xidmət sahəsinin;

- Şahbuz şəhərində iaşə xidməti sahəsinin;

- Şahbuz şəhərində və Sələsüz kəndində hər birində bir xidmət sahəsinin;

- Şahbuz şəhərində iki ticarət sahəsinin yaradılması;

- Şahbuz şəhərində iaşə xidməti sahəsinin;

- Biçənək kəndində iki heyvandarlıq təsərrüfatının;

- Kolanı, Qızıl Qışlaq və Ağbulaq kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

## Sədərək rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Qaraağac kəndində yanacaqdoldurma məntəqəsinin yaradılması;

- Sədərək kəndində yükdaşıma xidmətinin genişləndirilməsi başa çatdırılmışdır.

Bu dövr ərzində Dəmirçi kəndində avtoservis və iaşə xidməti sahəsinin;

- Sədərək kəndində iaşə xidməti sahəsinin yaradılması;

- Sədərək kəndində heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

**Nəqliyyat infrastrukturu.** Naxçıvan şəhərinin Əliabad qəsəbəsində daxili avtomobil yollarının əsaslı təmiri başa çatdırılmışdır.

Şərur şəhərində daxili avtomobil yollarının və Təzəkənd avtomobil yolunun əsaslı təmiri başa çatdırılmışdır.

Şərur rayonunun Yuxarı Yaycı, Babək rayonunun Nəhəcir və Göynük, Ordubad rayonunun Anabad, Gənzə, Aza və Darkənd, Culfa rayonunun Gal və Şurud kəndlərində daxili avtomobil yollarının əsaslı təmiri başa çatdırılmışdır.

Kəngərli rayonunda Şahtaxtı Gömrük avtomobil yolunun və Xok kəndində daxili avtomobil yollarının əsaslı təmiri başa çatdırılmışdır.

Babək rayonunda Cəhri-Aşağı Buzqov və Nəhəcir-Göynük avtomobil yollarının əsaslı təmiri başa çatdırılmışdır.

Ordubad rayonunda Kələntərdizə-Qoşadizə kənd daxili avtomobil yolunun əsaslı təmiri davam etdirilmişdir.

Şərur rayonunun Axaməd kəndində daxili avtomobil yollarının əsaslı təmiri davam etdirilmişdir.

Şərur şəhərində avtovağzal binasının tikintisi başa çatdırılmışdır.

**Elektroenergetika və təbii qaz təminatı.** Culfa şəhərində 132/110/35/10 kilovoltluq Culfa yarımstansiyasının tikintisi davam etdirilmişdir.

1 yanvar 2026-cı il tarixə muxtar respublikada 90 min 966 əhali abonenti təbii qazla təmin olunmuşdur.

**Təhsil infrastrukturu.** Babək rayonunun Hacıvar kəndində məktəb binasının tikintisi, Nehrəm qəsəbəsində 3 nömrəli məktəbin binasının yenidənqurması davam etdirilmişdir.

**Mədəniyyət və turizm.** Şərur rayonunun Mahmudkənd və Yengicə kəndlərinin hər birində bir "Şəhid" bulağının tikintisi başa çatdırılmışdır.

Şahbuz şəhərində "Şəhidlər" Abidə Kompleksinin tikintisi davam etdirilmişdir.

Şərur rayonunun Xanlıqlar və Babək rayonunun Kalbaoruc Dizə kəndlərinin hər birində bir məscidin tikintisi davam etdirilmişdir.

Ordubad rayonunun Vənənd kəndində Bələdiyyə parkının tikintisi, Ordubad şəhərində "Ərbabın iş yeri" və tarixi binanın əsaslı təmiri davam etdirilmişdir.

Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi davam etdirilmişdir.

# Kənd təsərrüfatı

2025-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 402251,9 min manat təşkil etmişdir ki, onun da 179188,6 min manatı heyvandarlıq, 223063,3 min manatı isə bitkiçilik məhsullarının payına düşür.

## Kənd təsərrüfatının ümumi məhsulunun strukturu




Əvvəlki illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 2,8 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 1,0 faiz, heyvandarlıq məhsulları istehsalı 4,9 faiz azalmışdır.

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| Dövr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | heyvandarlıq məhsulları | bitkiçilik məhsulları |
| **2024-cü il** | | | |
| Yanvar | 100,4 | 101,0 | 43,1 |
| Yanvar-fevral | 96,8 | 97,2 | 41,1 |
| Yanvar-mart | 99,2 | 99,0 | 101,0 |
| Yanvar-aprel | 96,2 | 95,6 | 104,3 |
| Yanvar-may | 98,6 | 98,4 | 100,5 |
| Yanvar-iyun | 99,8 | 100,1 | 99,3 |

| Dövr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | heyvandarlıq məhsulları | bitkiçilik məhsulları |
| Yanvar-iyul | 101,3 | 100,6 | 101,9 |
| Yanvar-avqust | 101,1 | 100,8 | 101,2 |
| Yanvar-sentyabr | 101,2 | 100,5 | 101,8 |
| Yanvar-oktyabr | 101,5 | 101,2 | 101,7 |
| Yanvar-noyabr | 101,1 | 101,1 | 101,2 |
| Yanvar-dekabr | 102,0 | 101,6 | 102,3 |
| **2025-ci il** | | | |
| Yanvar | 95,6 | 95,6 | 107,1 |
| Yanvar-fevral | 97,5 | 97,5 | 105,5 |
| Yanvar-mart | 100,7 | 100,5 | 103,6 |
| Yanvar-aprel | 101,1 | 101,0 | 103,2 |
| Yanvar-may | 101,7 | 101,4 | 104,5 |
| Yanvar-iyun | 100,6 | 101,0 | 99,6 |
| Yanvar-iyul | 98,7 | 101,1 | 96,4 |
| Yanvar-avqust | 98,5 | 101,3 | 96,5 |
| Yanvar-sentyabr | 98,3 | 100,9 | 96,4 |
| Yanvar-oktyabr | 99,2 | 99,0 | 99,3 |
| Yanvar-noyabr | 97,3 | 95,8 | 98,5 |
| Yanvar-dekabr | 97,2 | 95,1 | 99,0 |

**Bitkiçilik.** Kənd təsərrüfatı məhsullarının yığımı başa çatmışdır. 2025-ci ildə 37957,0 ton dənli və dənli paxlalılar, 6649,2 ton dən üçün qarğıdalı, 43,4 ton dən üçün günəbaxan, 30,0 ton tütün, 2,2 ton sarıçiçək, 21111,8 ton kartof, 27084,7 ton tərəvəz, 4029,0 ton bostan məhsulları, 32327,0 ton meyvə və giləmeyvə, 7628,5 ton üzüm yığılmışdır. 2024-cü illə müqayisədə dənli və dənli paxlalılar istehsalı 21,7 faiz, tütün istehsalı 47,1 faiz, kartof istehsalı 9,5 faiz, bostan məhsulları istehsalı 63,8 faiz azalmış, dən üçün qarğıdalı istehsalı 55,6 faiz, dən üçün günəbaxan istehsalı 69,5 faiz, sarıçiçək istehsalı 3,7 dəfə, tərəvəz istehsalı 3,8 faiz, meyvə və giləmeyvə istehsalı 2,1 faiz, üzüm istehsalı isə 17,5 faiz artmışdır.

## Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı

| Bitkilərin adı | Yığılmış sahə, ha | | | Yığılmış məhsul, ton | | | Məhsuldarlıq, sentner/hektar | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2025-ci ildə | 2024-cü ildə | analoji nisbət, faizlə | 2025-ci ildə | 2024-cü ildə | analoji nisbət, faizlə | 2025-ci ildə | 2024-cü ildə | analoji nisbət, faizlə |
| Dənli və dənli-paxlalılar | 15 187,2 | 17 109,1 | 88,8 | 37 957,0 | 48 470,8 | 78,3 | 25,0 | 28,3 | 88,3 |
| o cümlədən | | | | | | | | | |
| buğda | 6 606,5 | 8 858,1 | 74,6 | 18 136,9 | 26 548,9 | 68,3 | 27,5 | 30,0 | 91,7 |
| arpa | 8 422,9 | 8 129,6 | 103,6 | 19 511,9 | 21 687,4 | 90,0 | 23,2 | 26,7 | 86,9 |
| paxlalılar | 153,5 | 120,4 | 127,5 | 297,4 | 232,5 | 127,9 | 19,4 | 19,3 | 100,5 |
| darı | 4,3 | 1,0 | 4,3 d. | 10,8 | 2,0 | 5,4 d. | 25,1 | 20,0 | 125,5 |
| Dən üçün qarğıdalı | 834,3 | 588,6 | 141,7 | 6 649,2 | 4 272,7 | 155,6 | 79,7 | 72,6 | 109,8 |
| Dən üçün günəbaxan | 22,4 | 13,4 | 167,2 | 43,4 | 25,6 | 169,5 | 19,4 | 19,1 | 101,6 |
| Tütün | 20,0 | 25,0 | 80,0 | 30,0 | 56,7 | 52,9 | 15,0 | 22,7 | 66,1 |
| Sarıçiçək | 2,0 | 1,0 | 2,0 d. | 2,2 | 0,6 | 3,7 d. | 11,0 | 6,0 | 183,3 |
| Küncüt | | 5,4 | | | 5,0 | | | 9,3 | |
| Yer fındığı | | 0,2 | | | 0,6 | | | 30,0 | |
| Kartof | 805,2 | 890,7 | 90,4 | 21 111,8 | 23 321,0 | 90,5 | 262,2 | 261,8 | 100,2 |
| Tərəvəz | 1 758,7 | 1 707,7 | 103,0 | 27 084,7 | 26 084,9 | 103,8 | 154,0 | 152,7 | 100,9 |
| Bostan bitkiləri | 351,2 | 699,5 | 50,2 | 4 029,0 | 11 135,7 | 36,2 | 114,7 | 159,2 | 72,0 |
| Meyvə | | | | 32 327,0 | 31 649,2 | 102,1 | | | |
| Üzüm | | | | 7 628,5 | 6 494,8 | 117,5 | | | |

Muxtar respublikada 2025-ci ildə payızlıq taxıl səpini başa çatmışdır. İlkin məlumatlara görə gələn ilin məhsulu üçün 12555,2 hektar sahədə dən üçün payızlıqlar səpilmişdir ki, bunun da 4082,8 hektarını buğda, 8472,4 hektarını isə arpa təşkil edir.

**Heyvandarlıq.** 2025-ci ildə diri çəkidə 21152,6 ton ət, 60691,3 ton süd, 69671,0 min ədəd yumurta, 898,5 ton yun istehsal olunmuşdur. 2024-cü illə müqayisədə ət istehsalı 5,9 faiz, süd istehsalı 4,0 faiz, yun istehsalı 1,7 faiz azalmış, yumurta istehsalı 0,1 faiz artmışdır.

## Əsas növ heyvandarlıq məhsullarının istehsalı




2026-cı il yanvarın 1-i vəziyyətinə muxtar respublika üzrə 56642 baş iribuynuzlu mal-qara, ondan 31662 baş inək və camış, 353301 baş qoyun və keçi mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 55,9 faizini inək və camışlar təşkil edir. Ötən ilə nisbətən iribuynuzlu mal-qara 4,0 faiz, inək və camışlar 4,6 faiz, qoyun və keçilər 3,5 faiz azalmışdır.

## Mal-qaranın sayı

(ayın 1-i vəziyyətinə, baş)

| Dövr | İribuynuzlu mal-qara | ondan inək və camışlar | Qoyun və keçilər |
|---|---|---|---|
| **2025-ci il** | | | |
| Yanvar | 58 976 | 33 179 | 366 067 |
| Aprel | 62 640 | 34 242 | 422 970 |
| İyul | 62 152 | 33 949 | 415 581 |
| Oktyabr | 60 203 | 33 207 | 380 473 |
| **2026-cı il** | | | |
| Yanvar | 56 642 | 31 662 | 353 301 |

# Nəqliyyat

2025-ci ildə muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 7220,6 min ton yük və 48011,7 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması 1,0 faiz, sərnişin daşınması 1,3 faiz artmışdır. Yüklərin 99,8 faizi avtomobil, 0,1 faizi hava və 0,1 faizi isə dəmiryolu nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 98,4 faizi avtomobil, 1,6 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

**Yük daşınmasında nəqliyyat növlərinin xüsusi çəkisi**
(yekuna görə faizlə)




**Avtomobil nəqliyyatı** vasitəsilə 7210,1 min ton yük, 47248,7 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması 1,0 faiz, sərnişin daşınması 1,3 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 7,3 min ton yük, 763,0 min sərnişin daşınmış, bir il öncəyə nisbətən yük daşınması 11,0 faiz azalmış, sərnişin daşınması isə 0,1 faiz artmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 3,2 min ton yük daşınmışdır ki, bu da bir il öncəki göstəricidən müvafiq olaraq 23,1 faiz çoxdur.

## İnformasiya və rabitə

2025-ci ildə muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 35289,1 min manat olmuşdur ki, bu da 2024-cü illə müqayisədə 1,9 faiz azdır.

Xidmətlərin 38,1 faizi mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

## İstehlak bazarı

2025-ci ildə istehlakçıların tələbatının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 1618547,2 min manat olmaqla 2024-cü ilə nisbətən 3,5 faiz artmışdır.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2024-cü illə müqayisədə 3,6 faiz artaraq 1557294,2 min manat olmuş, bunun da 60,5 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

### İstehlak bazarı üzrə əsas göstəricilər

| | 2025-ci il, min manat | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış malların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **1 618 547,2** | **103,5** |
| o cümlədən: dövlət sektoru üzrə | 61 253,0 | 100,5 |
| qeyri-dövlət sektoru üzrə | 1 557 294,2 | 103,6 |
| ondan: fərdi sahibkarlar üzrə | 941 692,2 | 103,5 |

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 286,0 manat və ya 2024-cü illə müqayisədə nominal ifadədə 29,1 manat çox vəsait xərcləmişdir.

# Əmtəə bazarı

2025-ci ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 1366340,2 min manatlıq, o cümlədən 703665,2 min manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 662675,0 min manatlıq qeyri-qida məhsulları satılmışdır. 2024-cü illə müqayisədə pərakəndə ticarət dövriyyəsi 4,0 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 4,0 faiz, qeyri-qida məhsulları üzrə 4,1 faiz artmışdır.

## Pərakəndə ticarət dövriyyəsinin strukturu

| | 2025-ci il, min manat | ümumi yekunda xüsusi çəkisi, faizlə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **1 366 340,2** | **100,0** | **104,0** |
| o cümlədən: qida məhsulları | 703 665,2 | 51,5 | 104,0 |
| qeyri-qida məhsulları | 662 675,0 | 48,5 | 104,1 |

Hesabat dövründə muxtar respublikada əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 241,4 manat və ya 2024-cü illə müqayisədə nominal ifadədə 26,3 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir nəfər orta hesabla ayda 124,3 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 117,1 manatlıq qeyri-qida məhsulları almışdır.

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| Dövr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | qida məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-qida məhsulları üzrə |
| **2024-cü il** | | | |
| Yanvar | 100,8 | 101,1 | 100,5 |
| Yanvar-fevral | 101,0 | 101,0 | 101,1 |
| Yanvar-mart | 100,9 | 101,0 | 100,8 |
| Yanvar-aprel | 100,7 | 100,8 | 100,6 |
| Yanvar-may | 101,0 | 101,3 | 100,6 |
| Yanvar-iyun | 101,2 | 101,4 | 100,9 |
| Yanvar-iyul | 101,0 | 101,3 | 100,5 |
| Yanvar-avqust | 100,9 | 101,2 | 100,6 |
| Yanvar-sentyabr | 101,1 | 101,8 | 100,3 |
| Yanvar-oktyabr | 100,9 | 101,7 | 100,1 |
| Yanvar-noyabr | 101,2 | 101,9 | 100,4 |
| Yanvar-dekabr | 101,3 | 101,4 | 101,1 |
| **2025-ci il** | | | |
| Yanvar | 103,6 | 103,0 | 104,2 |
| Yanvar-fevral | 102,5 | 102,5 | 102,6 |
| Yanvar-mart | 102,7 | 102,5 | 103,0 |
| Yanvar-aprel | 103,1 | 103,3 | 102,9 |
| Yanvar-may | 103,4 | 103,5 | 103,3 |
| Yanvar-iyun | 103,5 | 103,2 | 103,9 |
| Yanvar-iyul | 103,7 | 103,4 | 104,0 |
| Yanvar-avqust | 103,8 | 103,6 | 104,1 |
| Yanvar-sentyabr | 103,7 | 103,5 | 103,9 |
| Yanvar-oktyabr | 103,5 | 103,6 | 103,5 |
| Yanvar-noyabr | 103,7 | 103,6 | 103,8 |
| Yanvar-dekabr | 104,0 | 104,0 | 104,1 |

## Əmtəə bazarı üzrə göstəricilər

| | 2025-ci il, min manat | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **1 366 340,2** | **104,0** |
| o cümlədən: müəssisələr üzrə | 210 267,4 | 112,3 |
| fərdi sahibkarlar üzrə | 784 697,4 | 103,5 |
| bazar və yarmarkalar üzrə | 371 375,4 | 101,0 |

2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin 15,4 faizi müəssisələrin, 57,4 faizi fərdi sahibkarların, 27,2 faizi bazar və yarmarkaların payına düşür.

## 2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin strukturu




## Pərakəndə ticarət dövriyyəsi və indeksləri

| Aylar | 2024-cü il | | 2025-ci il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 101 220,3 | 100,8 | 111 631,7 | 103,6 |
| Fevral | 102 283,0 | 101,3 | 111 023,8 | 101,5 |

| Aylar | 2024-cü il | | 2025-ci il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Mart | 100 881,7 | 100,6 | 112 476,3 | 103,1 |
| Aprel | 99 434,7 | 100,2 | 111 997,7 | 104,3 |
| May | 101 043,5 | 101,9 | 114 894,2 | 104,5 |
| İyun | 101 637,0 | 101,8 | 114 981,7 | 104,0 |
| İyul | 98 642,7 | 100,1 | 112 351,5 | 104,7 |
| Avqust | 101 245,8 | 101,3 | 114 744,2 | 105,1 |
| Sentyabr | 101 652,3 | 101,2 | 113 731,9 | 102,2 |
| Oktyabr | 99 109,9 | 100,3 | 109 966,9 | 102,3 |
| Noyabr | 102 442,1 | 103,5 | 117 509,7 | 105,4 |
| Dekabr | 102 940,8 | 102,1 | 121 030,6 | 108,1 |

## Mal qrupları üzrə pərakəndə ticarət dövriyyəsi və indeksləri

| Aylar | Qida məhsulları, içkilər və tütün məmulatları | | Qeyri-qida məhsulları | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2024-cü il** | | | | |
| Yanvar | 52 027,2 | 101,1 | 49 193,1 | 100,5 |
| Fevral | 52 370,0 | 100,9 | 49 913,0 | 101,7 |
| Mart | 52 361,1 | 101,1 | 48 520,6 | 100,1 |
| Aprel | 50 401,2 | 100,1 | 49 033,5 | 100,3 |
| May | 51 835,3 | 103,4 | 49 208,2 | 100,3 |
| İyun | 52 746,3 | 101,5 | 48 890,7 | 102,1 |
| İyul | 49 997,2 | 101,6 | 48 645,5 | 98,1 |
| Avqust | 51 939,1 | 100,5 | 49 306,7 | 102,3 |
| Sentyabr | 53 055,7 | 105,6 | 48 596,6 | 96,8 |
| Oktyabr | 49 935,3 | 101,2 | 49 174,6 | 99,4 |

| Aylar | Qida məhsulları, içkilər və tütün məmulatları | | Qeyri-qida məhsulları | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Noyabr | 53 662,4 | 104,1 | 48 779,7 | 102,8 |
| Dekabr | 52 911,6 | 96,0 | 50 029,2 | 109,4 |
| **2025-ci il** | | | | |
| Yanvar | 57 267,1 | 103,0 | 54 364,6 | 104,2 |
| Fevral | 57 177,8 | 102,1 | 53 846,0 | 101,0 |
| Mart | 58 148,0 | 102,4 | 54 328,3 | 104,0 |
| Aprel | 58 125,9 | 105,8 | 53 871,8 | 102,7 |
| May | 59 285,4 | 104,1 | 55 608,8 | 104,9 |
| İyun | 58 653,6 | 101,7 | 56 328,1 | 106,7 |
| İyul | 57 071,6 | 104,6 | 55 279,9 | 104,8 |
| Avqust | 58 978,6 | 105,8 | 55 765,6 | 104,2 |
| Sentyabr | 59 476,0 | 102,4 | 54 255,9 | 102,1 |
| Oktyabr | 56 632,9 | 104,3 | 53 334,0 | 100,1 |
| Noyabr | 60 517,5 | 103,6 | 56 992,2 | 107,5 |
| Dekabr | 62 330,8 | 108,2 | 58 699,8 | 107,9 |

# İctimai iaşə xidmətləri

2025-ci ildə ictimai iaşə dövriyyəsi 2024-cü illə müqayisədə 2,0 faiz artaraq 53717,4 min manat olmuşdur.

## İctimai iaşə dövriyyəsi

| | 2025-ci il, min manat | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **İctimai iaşə dövriyyəsi** | **53 717,4** | **102,0** |
| hüquqi şəxslər üzrə | 2 606,6 | 158,2 |
| fərdi sahibkarlar üzrə | 51 110,8 | 100,2 |

İctimai iaşə dövriyyəsinin 4,9 faizi hüquqi şəxslərin, 95,1 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür.

## İctimai iaşə dövriyyəsinin dinamikası

| Aylar | 2024-cü il | | 2025-ci il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 3 619,4 | 100,5 | 3 857,9 | 100,9 |
| Fevral | 3 860,4 | 100,6 | 4 128,1 | 101,4 |
| Mart | 4 244,8 | 100,4 | 4 541,6 | 101,3 |
| Aprel | 3 164,9 | 100,8 | 3 485,0 | 104,3 |
| May | 3 739,8 | 101,3 | 4 002,8 | 101,1 |
| İyun | 5 900,2 | 100,3 | 6 225,7 | 100,5 |
| İyul | 4 147,9 | 100,3 | 4 517,0 | 103,8 |
| Avqust | 4 227,1 | 100,7 | 4 578,3 | 103,3 |
| Sentyabr | 4 251,4 | 102,6 | 4 534,2 | 101,3 |
| Oktyabr | 4 209,6 | 101,1 | 4 467,7 | 100,3 |
| Noyabr | 4 188,1 | 100,2 | 4 360,6 | 98,6 |
| Dekabr | 4 414,4 | 99,5 | 5 018,5 | 108,2 |

## Əhaliyə göstərilən ödənişli xidmətlər

Muxtar respublikada 2025-ci ildə əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri 2024-cü illə müqayisədə 0,3 faiz artaraq 198489,6 min manat təşkil etmişdir.

### Ödənişli xidmətlərin ümumi dəyəri

| | 2025-ci il, min manat | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri** | **198 489,6** | **100,3** |
| o cümlədən: dövlət sektoru üzrə | 58 723,4 | 98,5 |
| qeyri-dövlət sektoru üzrə | 139 766,2 | 101,0 |
| ondan: fərdi sahibkarlar üzrə | 105 884,0 | 105,8 |

Hüquqi şəxslər tərəfindən əhaliyə 92605,6 min manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 46,7 faizini təşkil edir.

2025-ci ildə muxtar respublikada əhalinin hər bir nəfəri orta hesabla 420,8 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 25,2 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

### Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| Dövr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: hüquqi şəxslər üzrə | o cümlədən: fərdi sahibkarlar üzrə |
| **2024-cü il** | | | |
| Yanvar | 100,5 | 79,6 | 133,3 |
| Yanvar-fevral | 100,7 | 99,9 | 101,4 |

| Dövr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | fərdi sahibkarlar üzrə |
| Yanvar-mart | 100,6 | 99,8 | 101,2 |
| Yanvar-aprel | 101,8 | 103,6 | 100,4 |
| Yanvar-may | 101,6 | 103,2 | 100,3 |
| Yanvar-iyun | 100,8 | 96,5 | 104,3 |
| Yanvar-iyul | 100,7 | 94,9 | 105,6 |
| Yanvar-avqust | 101,0 | 94,0 | 107,2 |
| Yanvar-sentyabr | 100,4 | 90,7 | 109,5 |
| Yanvar-oktyabr | 100,6 | 92,7 | 108,3 |
| Yanvar-noyabr | 100,8 | 95,0 | 106,7 |
| Yanvar-dekabr | 101,2 | 98,1 | 104,4 |
| **2025-ci il** | | | |
| Yanvar | 111,4 | 121,9 | 101,4 |
| Yanvar-fevral | 111,5 | 123,7 | 101,0 |
| Yanvar-mart | 109,6 | 120,0 | 101,3 |
| Yanvar-aprel | 109,1 | 118,6 | 101,6 |
| Yanvar-may | 107,4 | 114,9 | 101,5 |
| Yanvar-iyun | 106,7 | 114,3 | 101,0 |
| Yanvar-iyul | 105,8 | 111,9 | 101,1 |
| Yanvar-avqust | 105,1 | 109,8 | 101,4 |
| Yanvar-sentyabr | 104,9 | 109,2 | 101,5 |
| Yanvar-oktyabr | 103,0 | 102,9 | 103,1 |
| Yanvar-noyabr | 101,6 | 99,3 | 103,7 |
| Yanvar-dekabr | 100,3 | 94,6 | 105,8 |

## Əhaliyə göstərilən ödənişli xidmətlər

| Aylar | 2024-cü il | | 2025-ci il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 14 323,2 | 100,5 | 17 162,8 | 111,4 |
| Fevral | 15 066,1 | 100,8 | 17 902,8 | 111,7 |
| Mart | 15 837,9 | 100,6 | 17 817,0 | 106,1 |
| Aprel | 16 232,6 | 101,9 | 18 520,8 | 107,6 |
| May | 14 792,3 | 100,9 | 15 714,1 | 100,3 |
| İyun | 15 437,9 | 96,8 | 16 863,1 | 103,1 |
| İyul | 15 299,9 | 100,2 | 16 192,3 | 100,5 |
| Avqust | 15 475,7 | 103,2 | 16 387,1 | 100,1 |
| Sentyabr | 15 054,1 | 95,4 | 16 621,3 | 103,1 |
| Oktyabr | 15 868,1 | 102,4 | 14 597,0 | 86,7 |
| Noyabr | 15 608,2 | 103,9 | 14 552,3 | 87,8 |
| Dekabr | 16 875,6 | 104,7 | 16 159,0 | 87,8 |

## İstehlak qiymətləri indeksi

2025-ci ilin yanvar-dekabr aylarında istehlak qiymətləri indeksi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 107,8 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 108,6 faiz, qeyri-qida məhsulları üzrə 108,0 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 106,5 faiz təşkil etmişdir.

## İstehlak qiymətləri indeksinin dəyişməsi

| Aylar | Cəmi məhsullar və xidmətlər | | Qida məhsulları, içkilər və tütün məmulatları | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə* | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə* |
| **2024-cü il** | | | | |
| Yanvar | 100,2 | 106,4 | 100,6 | 108,5 |
| Fevral | 100,6 | 105,9 | 100,8 | 108,0 |
| Mart | 100,3 | 105,3 | 100,4 | 107,1 |
| Aprel | 100,4 | 104,8 | 100,4 | 106,2 |
| May | 100,1 | 104,6 | 99,8 | 105,8 |
| İyun | 99,7 | 104,4 | 99,0 | 105,4 |
| İyul | 100,2 | 104,4 | 99,0 | 105,3 |
| Avqust | 100,3 | 104,4 | 100,3 | 105,2 |
| Sentyabr | 100,6 | 104,3 | 101,0 | 104,9 |
| Oktyabr | 101,8 | 104,3 | 102,8 | 104,8 |
| Noyabr | 100,3 | 104,3 | 100,5 | 104,8 |
| Dekabr | 101,1 | 104,5 | 101,9 | 105,0 |
| **2025-ci il** | | | | |
| Yanvar | 101,4 | 106,9 | 100,8 | 106,9 |
| Fevral | 100,5 | 106,8 | 100,8 | 106,9 |
| Mart | 101,0 | 107,1 | 101,8 | 107,4 |
| Aprel | 100,4 | 107,2 | 100,9 | 107,8 |
| May | 100,5 | 107,4 | 100,5 | 108,2 |
| İyun | 99,5 | 107,5 | 98,5 | 108,4 |
| İyul | 100,1 | 107,5 | 98,8 | 108,5 |
| Avqust | 99,7 | 107,5 | 98,7 | 108,4 |
| Sentyabr | 102,0 | 107,6 | 103,0 | 108,5 |
| Oktyabr | 100,9 | 107,6 | 102,1 | 108,5 |
| Noyabr | 100,5 | 107,7 | 100,7 | 108,5 |
| Dekabr | 101,9 | 107,8 | 102,0 | 108,6 |

| Aylar | Qeyri-qida məhsulları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə* | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə* |
| **2024-cü il** | | | | |
| Yanvar | 100,1 | 107,8 | 100,0 | 102,8 |
| Fevral | 100,0 | 107,1 | 101,1 | 102,3 |
| Mart | 100,0 | 106,5 | 100,4 | 102,2 |
| Aprel | 100,8 | 106,4 | 100,0 | 102,1 |
| May | 100,1 | 106,1 | 100,4 | 102,2 |
| İyun | 100,3 | 105,9 | 100,0 | 102,1 |
| İyul | 100,6 | 105,8 | 101,6 | 102,3 |
| Avqust | 100,5 | 105,8 | 100,0 | 102,5 |
| Sentyabr | 100,4 | 105,6 | 100,1 | 102,6 |
| Oktyabr | 101,1 | 105,6 | 100,9 | 102,8 |
| Noyabr | 100,3 | 105,5 | 100,0 | 103,0 |
| Dekabr | 101,0 | 105,5 | 100,0 | 103,1 |
| **2025-ci il** | | | | |
| Yanvar | 100,8 | 106,1 | 102,9 | 107,6 |
| Fevral | 100,6 | 106,4 | 100,0 | 107,0 |
| Mart | 100,9 | 106,9 | 100,0 | 106,7 |
| Aprel | 100,1 | 106,9 | 100,0 | 106,5 |
| May | 100,8 | 107,1 | 100,3 | 106,4 |
| İyun | 100,5 | 107,2 | 100,0 | 106,3 |
| İyul | 101,1 | 107,4 | 101,0 | 106,2 |
| Avqust | 100,6 | 107,5 | 100,5 | 106,1 |
| Sentyabr | 101,2 | 107,7 | 101,3 | 106,2 |
| Oktyabr | 100,1 | 107,8 | 100,0 | 106,2 |
| Noyabr | 100,6 | 107,9 | 100,1 | 106,2 |
| Dekabr | 101,1 | 108,0 | 102,8 | 106,5 |

***)** İlin əvvəlinin bir il öncəyə nisbəti

## İstehlak məhsullarının və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri, faizlə (əvvəlki ilin müvafiq dövrünə nisbətən)




## Kredit qoyuluşları və pul kütləsinin dövriyyəsi

2025-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 455668,5 min manat məbləğində kredit verilmişdir. Verilmiş kreditlərin 49182,4 min manatı və yaxud 10,8 faizi qısamüddətli, 406486,1 min manatı və yaxud 89,2 faizi uzunmüddətli kreditlər olmuşdur.

## İqtisadiyyata kredit qoyuluşu

| Müqayisə predmeti | 2025-ci ilin yanvar-noyabr ayları, min manat | 2024-cü ilin yanvar-noyabr ayları, min manat | analoji nisbət, faizlə |
|---|---|---|---|
| **Kredit qoyuluşları - cəmi** | **455 668,5** | **366 701,3** | **124,3** |
| o cümədən qısamüddətli | 49 182,4 | 31 601,1 | 155,6 |
| uzunmüddətli | 406 486,1 | 335 100,2 | 121,3 |

## 2025-ci ilin yanvar-noyabr aylarında verilmiş kreditlərin strukturu, min manat




1 dekabr 2025-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 241771 olmuşdur ki, bunun da 215091-i və ya 89,0 faizi aktiv hesablardır.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 dekabr 2025-ci il tarixə 3928 olmuşdur ki, bunun da 1898-i mobil POS olmuşdur.

## Məşğulluq və işsizlik

2026-cı il yanvar ayının 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 275,5 min nəfər olmuş, onlardan 261,0 min nəfərini məşğul əhali təşkil etmişdir.

2025-ci ilin dekabr ayının 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 61034 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 37808 nəfər, qeyri-dövlət sektorunda isə 23226 nəfər təşkil etmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən 2,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 0,1 faizi mədənçıxarma sənayesi, 9,4 faizi emal sənayesi, 3,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 4,6 faizi su təchizatı; tullantıların təmizlənməsi və emalı, 5,3 faizi tikinti sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 13,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 3,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi informasiya və rabitə, 0,7 faizi maliyyə və sığorta fəaliyyəti, 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,3 faizi peşə, elmi və texniki fəaliyyət, 1,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 10,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 22,9 faizi təhsil, 9,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 5,3 faizi istirahət, əyləncə və incəsənət, 2,2 faizi isə digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışmışlar.

## 2025-ci il dekabr ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla çalışan işçilərin sayı

nəfər

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Naxçıvan Muxtar Respublikası üzrə - cəmi** | **61 034** | **37 808** | **23 226** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1 303 | 378 | 925 |
| Mədənçıxarma sənayesi | 89 | 48 | 41 |
| Emal sənayesi | 5 711 | 52 | 5 659 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı | 1 947 | 1 947 | - |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 2 778 | 2 778 | - |
| Tikinti | 3 255 | 717 | 2 538 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 8 146 | 186 | 7 960 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2 196 | 1 003 | 1 193 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1 927 | - | 1 927 |
| İnformasiya və rabitə | 717 | 576 | 141 |
| Maliyyə və sığorta fəaliyyəti | 398 | 180 | 218 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 500 | 348 | 152 |
| Peşə, elmi və texniki fəaliyyət | 815 | 574 | 241 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 920 | 557 | 363 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 6 105 | 5 951 | 154 |
| Təhsil | 13 983 | 13 864 | 119 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 5 649 | 5 368 | 281 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 3 256 | 3 219 | 37 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1 339 | 62 | 1 277 |

2026-cı il yanvar ayının 1-i vəziyyətinə Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olub ölkənin digər şəhər və rayonlarının məşğulluq mərkəzlərində, həmçinin muxtar respublikanın Dövlət Məşğulluq Agentliyində qeydiyyata alınan işsiz əhalinin sayı 14,5 min nəfər olmuş və onların 59,8 faizini qadınlar təşkil etmişdir.

## Yeni iş yerləri

2025-ci ildə muxtar respublikada 750 yeni iş yeri açılmışdır ki, bu da 2024-cü illə müqayisədə açılmış 2191 iş yerindən 65,8 faiz azdır. Bu dövrdə yaradılmış iş yerlərinin 31,6 faizi dövlət sektorunda, 68,4 faizi isə qeyri-dövlət sektorunda açılmışdır. Yeni açılmış iş yerlərinin 93,6 faizi Naxçıvan şəhərinin, 3,8 faizi Şərur, 0,3 faizi Babək, 0,3 faizi Ordubad, 0,3 faizi Culfa, 1,6 faizi Şahbuz və 0,1 faizi Sədərək rayonlarının payına düşmüşdür.

Yeni açılmış iş yerlərinin 34,7 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 65,3 faizi isə mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

## Yeni iş yerlərinin strukturu




**Nəqliyyat, informasiya və rabitə.** 2025-ci ildə Kəngərli rayonunda avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 298,3 min ton yük, 968,0 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması və sərnişin daşınması hər iki halda 1,1 faiz artmışdır.

Kəngərli rayonu üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 277,7 min manat olmuşdur ki, bu da 2024-cü illə müqayisədə 43,7 faiz azdır.

**İstehlak bazarı.** 2025-ci ildə Kəngərli rayonunda əvvəlki illə müqayisədə pərakəndə ticarət dövriyyəsi 3,8 faiz artaraq 47821,9 min manat təşkil etmişdir. İctimai iaşə dövriyyəsi 2632,2 min manat təşkil etmişdir ki, bu da 2024-cü illə müqayisədə 1,8 faiz çoxdur. 2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilə nisbətən 0,1 faiz artaraq 11115,4 min manat təşkil etmişdir.

Kəngərli rayonunda 2025-ci ildə pərakəndə ticarət, ictimai iaşə dövriyyələri və əhaliyə göstərilən ödənişli xidmətlər aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Müqayisə predmeti | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 47 821,9 | 103,8 |
| İctimai iaşə dövriyyəsi, min manat | 2 632,2 | 101,8 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 11 115,4 | 100,1 |

**Yeni iş yerləri.** 2025-ci ildə Kəngərli rayonunda 1 yeni iş yeri açılmışdır.

| Açılmış iş yerlərinin müxtəlif təşkilatlar üzrə bölgüsü | 2025-ci il | | | | Cəmi |
|---|---|---|---|---|---|
| | I rüb | II rüb | III rüb | IV rüb | |
| **Açılmış iş yerlərinin sayı, cəmi** | **-** | **-** | **-** | **1** | **1** |
| o cümlədən | | | | | |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | - | - | - | 1 | 1 |
| mövcud müəssisə və təşkilatlarda | - | - | - | - | - |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | - | - | - | - | - |
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | - | - | - | - | - |

## Kəngərli rayonunun iqtisadi və sosial inkişafının əsas göstəriciləri

| Göstəricinin adı | 2025-ci ildə, faktiki | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı, min manat | 98 176,2 | 103,9 |
| Sənaye məhsulu, min manat | 34 082,3 | 91,7 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat | 11 028,0 | 4,4 dəfə |
| ondan tikinti-quraşdırma işləri | 8 044,0 | 4,1 dəfə |
| Kənd təsərrüfatı məhsulu, min manat | 37 101,2 | 97,6 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 298,3 | 101,1 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | 968,0 | 101,1 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 277,7 | 56,3 |
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 47 821,9 | 103,8 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 11 115,4 | 100,1 |

## 2025-ci ildə Şahbuz rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışı.** 2025-ci ildə 86243,3 min manatlıq, yaxud 2024-cü illə müqayisədə 4,3 faiz az məhsul buraxılışı qeydə alınmışdır.

**Sənaye.** 2025-ci ildə 26890,0 min manatlıq, yaxud 2024-cü illə müqayisədə 6,1 faiz az sənaye məhsulu istehsal olunmuşdur.

**Əsaslı tikinti.** 2025-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7615,2 min manat və ya 2024-cü illə müqayisədə 22,4 faiz az vəsait yönəldilmişdir. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 19,4 faiz azalaraq 6943,4 min manat təşkil etmişdir.

**Kənd təsərrüfatı.** Şahbuz rayonunda məhsul yığımı başa çatmışdır. 2025-ci ildə əkin sahələrindən 1239,5 ton dənli və dənli paxlalılar, 330,9 ton tərəvəz, 223,4 ton kartof, 2925,8 ton meyvə və giləmeyvə, 48,5 ton üzüm yığılmışdır. Keçən illə müqayisədə dənli və dənli paxlalılar istehsalı 48,3 faiz, meyvə və giləmeyvə istehsalı 2,0 faiz azalmış, tərəvəz istehsalı 50,5 faiz, kartof istehsalı 11,4 faiz, üzüm istehsalı 2,1 faiz artmışdır.

1 yanvar 2026-ci il tarixə Şahbuz rayonunda 7709 baş iribuynuzlu mal-qara olmuşdur ki, bu da 1 yanvar 2025-ci illə müqayisədə 3,3 faiz azdır.

Məhsuldar mal-qara olan inək-camışlar iribuynuzlu mal-qaranın 3956 başını və yaxud 51,3 faizini təşkil etməklə 1 yanvar 2025-ci illə müqayisədə 8,8 faiz azdır.

1 yanvar 2026-cı il tarixə Şahbuz rayonunda 30370 baş qoyun və keçi olmuşdur ki, bu da 1 yanvar 2025-ci illə müqayisədə 1,7 faiz çoxdur.

## Şahbuz rayonunda mal-qaranın sayı, baş

| Göstəricilərin adı | 1 yanvar 2026-cı il tarixə | 1 yanvar 2025-ci il tarixə | analoji nisbət, faizlə |
|---|---|---|---|
| İribuynuzlu mal-qara | 7 709 | 7 968 | 96,7 |
| ondan :<br>inək-camışlar | 3 956 | 4 338 | 91,2 |
| Qoyun və keçilər | 30 370 | 29 854 | 101,7 |

2025-ci ildə Şahbuz rayonunda diri çəkidə 2224,7 ton ət, 10598,0 ton süd, 9892,0 min ədəd yumurta, 98,4 ton yun istehsal edilmişdir. 2024-cü illə müqayisədə ət istehsalı 3,4 faiz, süd istehsalı 3,0 faiz, yumurta istehsalı 0,8 faiz, yun istehsalı 37,7 faiz azalmışdır.

Şahbuz rayonunda heyvandarlıq məhsulları istehsalı aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Məhsulların adı | 2025-ci il | 2024-cü il | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Ət (diri çəkidə), ton | 2 224,7 | 2 304,0 | 96,6 |
| Süd, ton | 10 598,0 | 10 927,0 | 97,0 |
| Yumurta, min ədəd | 9 892,0 | 9 971,0 | 99,2 |
| Yun, ton | 98,4 | 158,0 | 62,3 |

## Kənd təsərrüfatı məhsulu haqqında

min manat

| Sahələr | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Heyvandarlıq | 24 311,1 | 96,5 |
| Bitkiçilik | 12 129,2 | 97,0 |
| **Kənd təsərrüfatı üzrə cəmi məhsul istehsalı** | **36 440,3** | **96,6** |

Şahbuz rayonunun kənd təsərrüfatı sektorunda 36440,3 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2024-cü illə müqayisədə 3,4 faiz azdır.

**Nəqliyyat, informasiya və rabitə.** 2025-ci ildə Şahbuz rayonunda avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 198,9 min ton yük, 1003,8 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması 0,8 faiz, sərnişin daşınması isə 1,1 faiz artmışdır.

Şahbuz rayonu üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 379,3 min manat olmuşdur ki, bu da 2024-cü illə müqayisədə 32,6 faiz azdır.

**İstehlak bazarı.** 2025-ci ildə Şahbuz rayonunda əvvəlki illə müqayisədə pərakəndə ticarət dövriyyəsi 3,6 faiz artaraq 34158,5 min manat təşkil etmişdir. İctimai iaşə dövriyyəsi 2363,6 min manat təşkil etmişdir ki, bu da 2024-cü illə müqayisədə 1,8 faiz çoxdur. 2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilə nisbətən 0,2 faiz artaraq 9527,5 min manat təşkil etmişdir.

Şahbuz rayonunda 2025-ci ildə pərakəndə ticarət, ictimai iaşə dövriyyələri və əhaliyə göstərilən ödənişli xidmətlər aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Müqayisə predmeti | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 34 158,5 | 103,6 |
| İctimai iaşə dövriyyəsi, min manat | 2 363,6 | 101,8 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 9 527,5 | 100,2 |

**Yeni iş yerləri.** 2025-ci ildə Şahbuz rayonunda 12 yeni iş yeri açılmışdır.

| Açılmış iş yerlərinin müxtəlif təşkilatlar üzrə bölgüsü | 2025-ci il | | | | Cəmi |
|---|---|---|---|---|---|
| | I rüb | II rüb | III rüb | IV rüb | |
| **Açılmış iş yerlərinin sayı, cəmi** | **-** | **11** | **-** | **1** | **12** |
| o cümlədən | | | | | |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | - | 11 | - | - | 11 |
| mövcud müəssisə və təşkilatlarda | - | - | - | 1 | 1 |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | - | - | - | - | - |
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | - | - | - | - | - |

## Şahbuz rayonunun iqtisadi və sosial inkişafının əsas göstəriciləri

| Göstəricinin adı | 2025-ci ildə, faktiki | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı, min manat | 86 243,3 | 95,7 |
| Sənaye məhsulu, min manat | 26 890,0 | 93,9 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat | 7 615,2 | 77,6 |
| ondan tikinti-quraşdırma işləri | 6 943,4 | 80,6 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 36 440,3 | 96,6 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 198,9 | 100,8 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | 1 003,8 | 101,1 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 379,3 | 67,4 |
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 34 158,5 | 103,6 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 9 527,5 | 100,2 |

## 2025-ci ildə Sədərək rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışı.** 2025-ci ildə 35892,0 min manatlıq, yaxud 2024-cü illə müqayisədə 7,6 faiz çox məhsul buraxılışı qeydə alınmışdır.

**Sənaye.** 2025-ci ildə 9461,9 min manatlıq, yaxud 2024-cü illə müqayisədə 33,6 faiz çox sənaye məhsulu istehsal olunmuşdur.

**Əsaslı tikinti.** 2025-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5062,9 min manat və ya 2024-cü illə müqayisədə 38,1 faiz çox vəsait yönəldilmişdir. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 18,6 faiz azalaraq 2827,0 min manat təşkil etmişdir.

**Kənd təsərrüfatı.** Sədərək rayonunda məhsul yığımı başa çatmışdır. 2025-ci ildə əkin sahələrindən 4616,0 ton dənli və dənli paxlalılar, 38,7 ton dən üçün qarğıdalı, 2,9 ton dən üçün günəbaxan, 753,0 ton tərəvəz, 552,6 ton kartof, 205,8 ton bostan məhsulları, 609,7 ton meyvə və giləmeyvə, 612,0 ton üzüm yığılmışdır. Keçən illə müqayisədə dənli və dənli paxlalılar istehsalı 20,4 faiz, dən üçün qarğıdalı 34,5 faiz, kartof istehsalı 3,3 faiz, bostan məhsulları istehsalı 12,8 faiz azalmış, dən üçün günəbaxan istehsalı 52,6 faiz, tərəvəz istehsalı 1,1 faiz, meyvə və giləmeyvə istehsalı 2,5 faiz, üzüm istehsalı 0,8 faiz artmışdır.

1 yanvar 2026-cı il tarixə Sədərək rayonunda 2560 baş iribuynuzlu mal-qara olmuşdur ki, bu da 1 yanvar 2025-ci illə müqayisədə 6,9 faiz çoxdur.

Məhsuldar mal-qara olan inək-camışlar iribuynuzlu mal-qaranın 1390 başını və yaxud 54,3 faizini təşkil etməklə 1 yanvar 2025-ci illə müqayisədə 2,4 faiz çoxdur.

1 yanvar 2026-cı il tarixə Sədərək rayonunda 12540 baş qoyun və keçi olmuşdur ki, bu da 1 yanvar 2025-ci illə müqayisədə 1,5 faiz çoxdur.

## Sədərək rayonunda mal-qaranın sayı, baş

| Göstəricilərin adı | 1 yanvar 2026-cı il tarixə | 1 yanvar 2025-ci il tarixə | analoji nisbət, faizlə |
|---|---|---|---|
| İribuynuzlu mal-qara | 2 560 | 2 394 | 106,9 |
| ondan :<br>inək-camışlar | 1 390 | 1 358 | 102,4 |
| Qoyun və keçilər | 12 540 | 12 349 | 101,5 |

2025-ci ildə Sədərək rayonunda diri çəkidə 364,0 ton ət, 1498,0 ton süd, 1020,0 min ədəd yumurta, 22,4 ton yun istehsal edilmişdir. 2024-cü illə müqayisədə ət istehsalı 1,4 faiz, süd istehsalı 2,7 faiz azalmış, yumurta istehsalı 0,6 faiz, yun istehsalı 17,9 faiz artmışdır.

Sədərək rayonunda heyvandarlıq məhsulları istehsalı aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Məhsulların adı | 2025-ci il | 2024-cü il | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Ət (diri çəkidə), ton | 364,0 | 369,0 | 98,6 |
| Süd, ton | 1 498,0 | 1 539,0 | 97,3 |
| Yumurta, min ədəd | 1 020,0 | 1 014,0 | 100,6 |
| Yun, ton | 22,4 | 19,0 | 117,9 |

## Kənd təsərrüfatı məhsulu haqqında

min manat

| Sahələr | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Heyvandarlıq | 4 238,6 | 98,6 |
| Bitkiçilik | 10 695,0 | 94,4 |
| **Kənd təsərrüfatı üzrə cəmi məhsul istehsalı** | **14 933,6** | **95,5** |

Sədərək rayonunda kənd təsərrüfatı sektorunda 14933,6 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2024-cü illə müqayisədə 4,5 faiz azdır.

**Nəqliyyat, informasiya və rabitə.** 2025-ci ildə Sədərək rayonunda avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 112,3 min ton yük, 469,1 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması 1,1 faiz, sərnişin daşınması 1,2 faiz artmışdır.

Sədərək rayonu üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 224,6 min manat olmuşdur ki, bu da 2024-cü illə müqayisədə 25,2 faiz azdır.

**İstehlak bazarı.** 2025-ci ildə Sədərək rayonunda əvvəlki illə müqayisədə pərakəndə ticarət dövriyyəsi 4,0 faiz artaraq 19128,7 min manat təşkil etmişdir. İctimai iaşə dövriyyəsi 1396,7 min manat təşkil etmişdir ki, bu da 2024-cü illə müqayisədə 1,6 faiz çoxdur. 2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilə nisbətən 0,1 faiz artaraq 4565,3 min manat təşkil etmişdir.

Sədərək rayonunda 2025-ci ildə pərakəndə ticarət, ictimai iaşə dövriyyələri və əhaliyə göstərilən ödənişli xidmətlər aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Müqayisə predmeti | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 19 128,7 | 104,0 |
| İctimai iaşə dövriyyəsi, min manat | 1 396,7 | 101,6 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 4 565,3 | 100,1 |

**Yeni iş yerləri.** 2025-ci ildə Sədərək rayonunda 1 yeni iş yeri açılmışdır.

| Açılmış iş yerlərinin müxtəlif təşkilatlar üzrə bölgüsü | 2025-ci il | | | | Cəmi |
|---|---|---|---|---|---|
| | I rüb | II rüb | III rüb | IV rüb | |
| **Açılmış iş yerlərinin sayı, cəmi** | **1** | **-** | **-** | **-** | **1** |
| o cümlədən | | | | | |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | - | - | - | - | - |
| mövcud müəssisə və təşkilatlarda | 1 | - | - | - | 1 |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | - | - | - | - | - |
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | - | - | - | - | - |

## Sədərək rayonunun iqtisadi və sosial inkişafının əsas göstəriciləri

| Göstəricinin adı | 2025-ci ildə, faktiki | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı, min manat | 35 892,0 | 107,6 |
| Sənaye məhsulu, min manat | 9 461,9 | 133,6 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat | 5 062,9 | 138,1 |
| ondan tikinti-quraşdırma işləri | 2 827,0 | 81,4 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 14 933,6 | 95,5 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 112,3 | 101,1 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | 469,1 | 101,2 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 224,6 | 74,8 |
| Pərakəndə ticarət dövriyyəsi, min manat | 19 128,7 | 104,0 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 4 565,3 | 100,1 |

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **H.F.Bağırov**

# ƏLAVƏLƏR

## Ümumi daxili məhsulun strukturu
### (əlavə dəyər)

min manat

| Göstəricilər | 2025-ci ildə | |
|---|---|---|
| | məhsulun dəyəri, faktiki | yekuna görə xüsusi çəkisi, faizlə |
| **Ümumi daxili məhsul** | **1 709 438,6** | **100,0** |
| o cümlədən | | |
| **məhsul istehsalı** | **506 850,3** | **29,7** |
| sənaye | 169 300,3 | 9,9 |
| kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 216 261,9 | 12,7 |
| tikinti | 121 288,1 | 7,1 |
| **xidmətlərin istehsalı** | **1 012 674,3** | **59,2** |
| nəqliyyat və anbar təsərrüfatı | 52 608,1 | 3,1 |
| informasiya və rabitə | 22 514,4 | 1,3 |
| ticarət; nəqliyyat vasitələrinin təmiri | 283 324,3 | 16,6 |
| turistlərin yerləşdirilməsi və ictimai iaşə | 39 667,5 | 2,3 |
| sosial və digər sahələr | 614 560,0 | 35,9 |
| **məhsula və idxala xalis vergilər** | **189 914,0** | **11,1** |

## Sənaye məhsulu (işlər, xidmətlər)

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 474 240,6 | 107,2 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 240 250,7 | 114,3 |
| Şərur rayonu | 25 101,8 | 83,4 |
| Babək rayonu | 108 255,7 | 93,8 |
| Ordubad rayonu | 13 355,6 | 40,6 |
| Culfa rayonu | 16 842,6 | 88,5 |
| Kəngərli rayonu | 34 082,3 | 91,7 |
| Şahbuz rayonu | 26 890,0 | 93,9 |
| Sədərək rayonu | 9 461,9 | 133,6 |

**Qeyd:** Metodologiyaya əsasən sənaye istehsalı indeksi hüquqi şəxslər tərəfindən natura ifadəsində istehsal edilmiş məhsulun müqayisə edilən dövrün məhsuluna olan nisbətidir.

## Əsas kapitala yönəldilmiş vəsaitlər

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 397 341,3 | 145,2 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 228 271,3 | 141,7 |
| Şərur rayonu | 28 569,4 | 112,6 |
| Babək rayonu | 51 519,3 | 136,8 |
| Ordubad rayonu | 48 326,1 | 3,5 dəfə |
| Culfa rayonu | 16 949,1 | 86,6 |
| Kəngərli rayonu | 11 028,0 | 4,4 dəfə |
| Şahbuz rayonu | 7 615,2 | 77,6 |
| Sədərək rayonu | 5 062,9 | 138,1 |

## Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə mal-qaranın ümumi sayına dair məlumat

### İribuynuzlu mal-qara

baş

| Təhlil dövrü / Şəhər və rayonlar | 1 yanvar 2026-cı il tarixə | 1 yanvar 2025-ci il tarixə | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 56 642 | 58 976 | 96,0 |
| o cümlədən | | | |
| Naxçıvan şəhəri | 1 969 | 2 604 | 75,6 |
| Şərur rayonu | 20 650 | 21 483 | 96,1 |
| Babək rayonu | 8 699 | 8 847 | 98,3 |
| Ordubad rayonu | 5 581 | 5 664 | 98,5 |
| Culfa rayonu | 4 977 | 5 686 | 87,5 |
| Kəngərli rayonu | 4 497 | 4 330 | 103,9 |
| Şahbuz rayonu | 7 709 | 7 968 | 96,7 |
| Sədərək rayonu | 2 560 | 2 394 | 106,9 |

o cümlədən inək və camışlar

| Təhlil dövrü / Şəhər və rayonlar | 1 yanvar 2026-cı il tarixə | 1 yanvar 2025-ci il tarixə | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 31 662 | 33 179 | 95,4 |
| o cümlədən | | | |
| Naxçıvan şəhəri | 1 425 | 1 581 | 90,1 |
| Şərur rayonu | 11 139 | 11 468 | 97,1 |
| Babək rayonu | 5 210 | 5 230 | 99,6 |
| Ordubad rayonu | 2 978 | 3 018 | 98,7 |
| Culfa rayonu | 2 942 | 3 412 | 86,2 |
| Kəngərli rayonu | 2 622 | 2 774 | 94,5 |
| Şahbuz rayonu | 3 956 | 4 338 | 91,2 |
| Sədərək rayonu | 1 390 | 1 358 | 102,4 |

## Qoyun və keçilər

baş

| Təhlil dövrü / Şəhər və rayonlar | 1 yanvar 2026-cı il tarixə | 1 yanvar 2025-ci il tarixə | analoji nisbət, faizlə |
|---|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 353 301 | 366 067 | 96,5 |
| o cümlədən | | | |
| Naxçıvan şəhəri | 9 926 | 9 352 | 106,1 |
| Şərur rayonu | 73 134 | 83 552 | 87,5 |
| Babək rayonu | 70 048 | 72 043 | 97,2 |
| Ordubad rayonu | 35 823 | 35 186 | 101,8 |
| Culfa rayonu | 35 105 | 41 367 | 84,9 |
| Kəngərli rayonu | 86 355 | 82 364 | 104,8 |
| Şahbuz rayonu | 30 370 | 29 854 | 101,7 |
| Sədərək rayonu | 12 540 | 12 349 | 101,5 |

## Kənd təsərrüfatı üzrə məhsul buraxılışı

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 402 251,9 | 97,2 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 15 097,3 | 87,5 |
| Şərur rayonu | 159 063,6 | 99,0 |
| Babək rayonu | 65 292,6 | 96,3 |
| Ordubad rayonu | 29 303,1 | 98,6 |
| Culfa rayonu | 45 020,2 | 95,9 |
| Kəngərli rayonu | 37 101,2 | 97,6 |
| Şahbuz rayonu | 36 440,3 | 96,6 |
| Sədərək rayonu | 14 933,6 | 95,5 |

## Nəqliyyat sektorunda yük daşınması

min ton

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 7 220,6 | 101,0 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 2 881,6 | 101,0 |
| Şərur rayonu | 1 601,5 | 101,1 |
| Babək rayonu | 1 452,4 | 100,9 |
| Ordubad rayonu | 263,7 | 101,0 |
| Culfa rayonu | 411,9 | 100,9 |
| Kəngərli rayonu | 298,3 | 101,1 |
| Şahbuz rayonu | 198,9 | 100,8 |
| Sədərək rayonu | 112,3 | 101,1 |

## Nəqliyyat sektorunda sərnişin daşınması

min sərnişin

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 48 011,7 | 101,3 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 27 205,1 | 101,3 |
| Şərur rayonu | 7 569,5 | 101,2 |
| Babək rayonu | 6 510,3 | 101,4 |
| Ordubad rayonu | 1 526,4 | 101,2 |
| Culfa rayonu | 2 759,5 | 101,0 |
| Kəngərli rayonu | 968,0 | 101,1 |
| Şahbuz rayonu | 1 003,8 | 101,1 |
| Sədərək rayonu | 469,1 | 101,2 |

## İnformasiya və rabitə sektorunda göstərilmiş xidmətlər

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 35 289,1 | 98,1 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 32 045,8 | 104,3 |
| Şərur rayonu | 818,8 | 65,9 |
| Babək rayonu | 533,0 | 48,3 |
| Ordubad rayonu | 556,8 | 68,0 |
| Culfa rayonu | 453,1 | 61,3 |
| Kəngərli rayonu | 277,7 | 56,3 |
| Şahbuz rayonu | 379,3 | 67,4 |
| Sədərək rayonu | 224,6 | 74,8 |

## Pərakəndə ticarət dövriyyəsi

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 1 366 340,2 | 104,0 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 661 308,7 | 104,1 |
| Şərur rayonu | 276 000,7 | 103,9 |
| Babək rayonu | 139 366,7 | 104,2 |
| Ordubad rayonu | 105 208,2 | 103,9 |
| Culfa rayonu | 83 346,8 | 104,2 |
| Kəngərli rayonu | 47 821,9 | 103,8 |
| Şahbuz rayonu | 34 158,5 | 103,6 |
| Sədərək rayonu | 19 128,7 | 104,0 |

## İctimai iaşə dövriyyəsi

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 53 717,4 | 102,0 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 18 425,1 | 102,1 |
| Şərur rayonu | 10 958,3 | 102,0 |
| Babək rayonu | 6 553,5 | 101,9 |
| Ordubad rayonu | 6 929,5 | 102,1 |
| Culfa rayonu | 4 458,5 | 101,9 |
| Kəngərli rayonu | 2 632,2 | 101,8 |
| Şahbuz rayonu | 2 363,6 | 101,8 |
| Sədərək rayonu | 1 396,7 | 101,6 |

## Əhaliyyə göstərilən ödənişli xidmətlər

min manat

| Təhlil dövrü / Şəhər və rayonlar | 2025-ci ildə | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| Naxçıvan MR üzrə cəmi | 198 489,6 | 100,3 |
| o cümlədən | | |
| Naxçıvan şəhəri | 63 516,7 | 100,3 |
| Şərur rayonu | 45 255,6 | 100,4 |
| Babək rayonu | 30 765,9 | 100,3 |
| Ordubad rayonu | 17 467,1 | 100,2 |
| Culfa rayonu | 16 276,1 | 100,1 |
| Kəngərli rayonu | 11 115,4 | 100,1 |
| Şahbuz rayonu | 9 527,5 | 100,2 |
| Sədərək rayonu | 4 565,3 | 100,1 |

# Q R A F İ K L Ə R

## 2025-ci ildə ümumi daxili məhsulun strukturu




## 2025-ci ildə sənayenin strukturu



## 2025-ci ildə maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, min manat




## Mal-qaranın sayı, baş



## 2025-ci ildə pərakəndə ticarət dövriyyəsi, min manat




## 2025-ci ildə ictimai iaşə dövriyyəsi, min manat



## 2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manat




## Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı, manat

(2025-ci ilin yanvar-noyabr ayları)



# METODOLOJİ İZAHATLAR

**Ümumi daxili məhsul (ÜDM)** iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. ÜDM həm istehsal, həm də xidmətlər sahələrində rezident vahidlərin iqtisadi fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlə ölçülür (istehsal üsulu). ÜDM hesabat dövründə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyərindən istehsal prosesinə sərf edilmiş aralıq xərclər istisna edildikdən sonra əldə edilmiş ümumi əlavə dəyərə məhsula və idxala xalis vergilər əlavə edilməklə hesablanır.

**ÜDM-in baza dövrünə nisbətən artım sürəti (fiziki həcm indeksi) -** ÜDM-in baza dövrünün qiymətləri ilə qiymətləndirilmiş cari dövrdəki dəyərinin onun baza dövründəki dəyərinə bölünməsi yolu ilə alınır. ÜDM muxtar respublikada məhsul və xidmətlər istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərə verilən əməkhaqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə desək gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər. Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

**Məhsula və idxala xalis vergilər -** subsidiyalar çıxılmaqla məhsula və idxala vergilərdir.

**Məhsula görə vergi və idxal (ixrac) vergiləri.** Məhsula görə vergilər adətən məhsul və ya xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara əsasən aşağıdakı vergilər aid edilir: -əlavə dəyər vergisi (ƏDV); -aksizlər ; -idxal və ixrac vergiləri, gömrük rüsumları.

**Əhalinin hər nəfərinə düşən ÜDM** - ÜDM-in ümumi həcmini muxtar respublika əhalisinin dövr üzrə orta sayına bölməklə hesablanır.

**Sənaye fəaliyyəti** - "mədənçıxarma sənayesi", "emal sənayesi", "elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" və "su təchizatı, tullantıların təmizlənməsi və emalı" kimi fəaliyyət növləri ilə əhatə olunur.

**Dəyər ifadəsində sənaye məhsulunun həcmi** - əsas fəaliyyəti sənaye olan müəssisələr (hüquqi şəxslər) və onların ayrı-ayrı xüsusiləşdirilmiş bölmələri, hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti göstərən fərdi sahibkarlar tərəfindən, habelə ev təsərrüfatları tərəfindən satılmaq üçün istifadə olunmuş sənaye məhsulunun, sənaye xarakterli işlərin, xidmətlərin dəyəridir. Bura sənaye müəssisəsinin və fərdi sahibkarın bütün bölmələri tərəfindən kənara satılmış, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə verilmiş, özünün əsas fondlarının (vəsaitlərinin) tərkibinə daxil edilmiş, eləcə də əməkhaqqı kimi öz işçilərinə verilmiş məmulat və məhsulların dəyəri, həmçinin hesabat dövründə və ya əvvəllər istehsal olunmasından asılı olmayaraq hesabat dövründə kənara, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə satılmış özünün istehsalı olan yarımfabrikatların dəyəri daxil edilir. Dəyəri hazır məhsulun istehsalçısı tərəfindən ödənilməyən xammal və materiallardan hazırlanan məmulat bu xammal və materialların dəyəri çıxılmaqla faktiki qüvvədə olan buraxılış qiymətləri ilə sənaye məhsulunun dəyərinə daxil edilir. Sənaye müəssisələrində məhsulun dəyəri zavoddaxili dövriyyənin dəyəri nəzərə alınmadan zavod metodu ilə müəyyən edilir. Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir. Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Sənaye istehsalı indeksi** - dəyər ifadəsində sənaye məhsulunun həcminin dəyişməsinin dinamikasını xarakterizə edir. Sənaye statistikasında tətbiq edilən metodologiyaya görə, artım (azalma) sürətləri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "əlavə dəyər" göstəricisi istifadə olunur. Sənaye istehsalı indeksinin hesablanmasında mikro sahibkarlıq subyektləri üzrə məlumatlar yalnız rüblük dövrilikdə nəzərə alınır.

**Əsas kapitala yönəldilmiş investisiyalar** - tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, istehsal olunmayan aktivlərə mülkiyyət hüququnun verilməsinə, qeyri-maddi əsas fondların (layihəaxtarış işləri, proqram təminatı, məlumat bazası, incəsənət və əyləncəli janr əsərlərinin orijinalları və s.) alınmasına və hazırlanmasına, əsas fondların dəyərinin artırılmasına yönəldilən sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir. Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir. Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılır.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** - tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması yaxud bərpası işlərinin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir.

**Məhsul istehsalı sahələrinə yönəldilmiş investisiyalar** - sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və tikinti (mənzil tikintisi istisna olmaqla) fəaliyyət sahələrinə yönəldilmiş investisiyalardır.

**Xidmət sahələrinə yönəldilmiş investisiyalar** - ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə, incəsənət və digər xidmət sahələrinə yönəldilmiş investisiyalardır.

**Yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar** - çoxmənzilli binaların, fərdi yaşayış və bağ evlərinin tikintisinə yönəldilmiş investisiyalardır.

**Kənd təsərrüfatı** - kənd təsərrüfatı bitkilərinin becərilməsi və kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi əsasında yeyinti məhsulları və sənaye üçün xammal mənbəyi olan iqtisadiyyat sahəsidir. Heyvandarlıq və bitkiçilik (əkinçilik) kimi altsahələri vardır.

**Kənd, meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu** dedikdə, bu sahədə (kənd, meşə və balıqçılıq) həm satış, həm də şəxsi istehlak məqsədilə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyəri nəzərdə tutulur. O, bitkiçilik və heyvandarlıqda, ovçuluq, meşəçilik və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulların (xidmətlərin) dəyəri əsasında formalaşır.

**Bitkiçilik və heyvandarlığın ümumi məhsuluna** istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsullarının dəyəri daxil edilir.

**İstehsal olunmuş bitkiçilik məhsulunun dəyərinə** kənd təsərrüfatı bitkiləri məhsullarının - dənli və dənli paxlalı bitkilərin, texniki bitkilərin (yağlı bitkilərin toxumları, şəkər çuğunduru, tütün və s.), kartof, tərəvəz və bostan bitkilərinin, meyvə və giləmeyvənin, digər bitkiçilik məsullarının dəyəri daxil edilir.

**Heyvandarlıqda istehsal olunmuş məhsulların dəyəri** kənd təsərrüfatı heyvanları və quşlarının saxlanması və təsərrüfatdaxili istifadəsi zamanı alınmış xam məhsulların (süd, yumurta, yun və s.) dəyəri, kəsim üçün satılmış mal-qara və

quşların dəyəri, habelə baramaçılıq, arıçılıq və s. heyvanların məhsullarının dəyəri daxil edilir.

**Kənd təsərrüfatı məhsullarının fiziki həcm indeksinin** hesablanması üçün müqayisəli qiymətlər əsasında onların ümumi istehsal həcmi göstəricilərindən istifadə olunur.

**Kənd təsərrüfatı bitkiləri məhsullarının ümumi yığımı** bütün əkin sahələrindən istehsal olunmuş (faktiki yığılmış) məhsulların həcmidir. Ayrı-ayrı bitkilər (kartof, şəkər çuğunduru, günəbaxan və s.) və ya bitki qrupları (dənli və dənli paxlalı bitkilər, tərəvəz, bostan və s.) üzrə hesablanır.

**Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı** - orta hesabla bir hektar yığım sahəsindən əldə edilmiş məhsulun səviyyəsini xarakterizə edir. Bu göstərici, bir qayda olaraq, sentnerlə hesablanır.

**Heyvandarlıq məhsullarının istehsalı** barədə məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə statistik hesabatlara, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə aparılan seçmə müayinə məlumatlarının əsasında müəyyən edilir.

**Ət istehsalına** bütün növ mal-qara və quşların əti, piyi və içalatı daxildir. Məlumatlara həm sənaye üsulu ilə, həm də təsərrüfatdaxili kəsilmiş mal-qara və quşlar daxil edilir.

**Süd istehsalı** inək, camış, qoyun və keçilərdən faktiki süd sağımını xarakterizə edir. Bura satılmış və təsərrüfatlarda istifadə edilmiş, balaların içirdilməsinə və sair məqsədlərə sərf olunmuş südün hamısı daxildir.

**Yumurta istehsalı** cücə istehsalına (inkubasiyaya və s.) istifadə edilənlər də daxil olmaqla, bütün növ ev quşlarından alınmış yumurtanı əks etdirir.

**Yun istehsalı** satılması və təsərrüfatda başqa məqsədlər üçün istifadə edilməsindən asılı olmayaraq, qoyun və keçilərdən qırxılmış bütün yunları, keçi qəzilini, habelə dəvə yununu əhatə edir. Bütün yunlar fiziki çəkidə, qırxımdan sonra yuyulmamış halda uçota alınır.

**Mal-qara və quşların baş sayı** əsas növlər üzrə (iribuynuzlu mal-qara, o cümlədən inək və camışlar, donuz,

qoyun və keçi, at, quş və s.) hesablanır və hesabat dövründən sonrakı ayın 1-nə olan vəziyyətə görə yazılır. Məlumatlar rüblük və illik dövr üzrə hesablanır. Mal-qara və quşların baş sayı statistik uçot və hesabat məlumatlarına əsasən müəyyən edilir.

**Nəqliyyat sektorunda yük daşınması** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Nəqliyyat sektorunda sərnişin daşınması** - qatar, avtobus, taksi və təyyarə vasitəsi ilə daşınmış sərnişinlərin sayını əhatə edir. Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq daşınmış sərnişinlərin hamısı (ödəniş etmədən getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**İnformasiya və rabitə xidmətlərindən əldə edilən gəlir** - informasiya və rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərin ümumi həcmidir. Bu göstərici əhaliyə, idarə, müəssisə və təşkilatlara göstərilmiş xidmətlər müqabilində informasiya və rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Milli hesablar sisteminin tələblərinə uyğun olaraq digər iqtisadi sahələrdə olduğu kimi, informasiya və rabitə müəssisələri üzrə də "informasiya və rabitə xidmətlərindən əldə olunmuş gəlir" göstəricisi formalaşdırılarkən ümumi gəlirin həcmi mal və xidmətlərin satışından əldə edilən vəsaitin müəssisələrin (idarənin, təşkilatın və s.) hesablaşma hesabına daxil olmasından asılı olmayaraq onun yaranması anındakı vəziyyətinə uyğun müəyyən edilir. Yəni bu göstərici hesablanarkən əldə olunan faktiki gəlirin məbləği deyil, hesabat dövründə göstərilən xidmətlərə görə hesablanmış məbləğ əsas götürülür.

**Pərakəndə əmtəə dövriyyəsi** - əsasən əhaliyə onun istifadəsi və ya istehlakı üçün yeni və ya istifadə olunmuş malların emal edilmədən satışını əks etdirir.

**Ticarət dövriyyəsinin müqayisəli qiymətlərlə indeksi** - məhsullar üzrə istehlak qiymətləri indeksi tətbiq edilməklə deflyasiya olunmuş cari göstəricinin baza göstəricisi ilə müqayisə edilməsi əsasında hesablanır. Ticarət dövriyyəsinin fiziki həcm indeksi qiymət dəyişikliklərinin təsiri istisna edilməklə fiziki həcmdəki dəyişikliyin dövriyyəyə təsirini ifadə edir.

**İctimai iaşə dövriyyəsi** - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

**Əhaliyə göstərilən ödənişli xidmətlər** - əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlərin dəyərini əks etdirir.

**İstehlak qiymətləri indeksi (İQİ)** - orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatlı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir. İQİ-dən milli hesablar sistemi göstəricilərinin müəyyənləşdirilməsində, ümumi daxili məhsulun son istifadəsinin ən mühüm komponentlərindən olan ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərdə hesablanmasında, eləcə də əhalinin real gəlirlərinin və digər göstəricilərin hesablanmasında istifadə olunur.

**İqtisadi fəal əhali (işçi qüvvəsi)** - məşğul və işsiz əhalinin ümumi sayıdır.

**İqtisadi qeyri-fəal əhali** - məşğul olmayan, müəyyən dövr ərzində iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslərdir.

**Məşğul əhali** - müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) haqqı ödənilmək və ya qazanc (gəlir) əldə etmək

müqabilində heç olmasa bir saat hər hansı əmək fəaliyyəti ilə məşğul olan 15 və yuxarı yaşda olan şəxslərdir.

**İşsiz əhali** - müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) işi və qazancı (gəliri) olmayan, müayinə həftəsindən əvvəlki son dörd həftə (və ya bir ay) ərzində ödənişli və ya gəlir gətirən hər hansı işlə məşğul olmaq üçün iş axtaran, müayinə həftəsində və ya sonrakı iki həftə ərzində işə başlamağa hazır olan əmək qabiliyyətli yaşda olan şəxslərdir.

**İşsizliyin səviyyəsi** - işsiz əhalinin sayının iqtisadi fəal əhalinin sayında faizlə ölçülən xüsusi çəkisidir.

**İxrac** - muxtar respublikada istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) muxtar respublika sərhədlərindən kənara göndərilməsidir. Muxtar respublikanın öz istehsalı sayılan mallara, həmçinin muxtar respublikaya gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

**İdxal** - muxtar respublikada istehlak etmək və ya təkrar ixrac edilmək üçün muxtar respublika sərhədlərindən kənardan mal gətirilməsidir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

**Orta aylıq nominal əməkhaqqı** - hesablanmış əməkhaqqı fondunun faktiki işləmiş muzdlu işçilərin orta siyahı sayına (sosial və ödənişsiz məzuniyyətdə olan şəxslər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Əhali sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Əhalinin son siyahıyaalınmasının yekun məlumatları əsasında

siyahıyaalmadan sonrakı dövrlər üzrə əhalinin sayı və strukturunda, eləcə də bəzi nisbi göstəricilərdə müvafiq dəqiqləşdirmələr aparılır. Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum və ölüm haqqında aktlarda olan məlumatların statistik cəhətdən hər ay işlənməsi əsasında əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** - təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** - uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** - əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində, müvafiq olaraq ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** - əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Nikah** kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir. Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** - təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır. Boşanma (nikahın pozulması) - birlikdə yaşayan ərarvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** - təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
21.01.2026
Naxçıvan AZ7000, Nizami küçəsi 18